*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır   8 noyabr 2015-ci il   № 85 (2001)   Qiyməti 25 qəpik


## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Mən əminəm ki, bizim milli bayrağımız Şuşada, Xankəndidə... qaldırılacaqdır

***Silahlı Qüvvələrimizin düşmənlə təmas xəttində yerləşən hərbi bölmələrinin birinə - döyüşçülərimizlə görüşə getmişdim. Hündür bir təpədə dalğalanan bayrağımızı görəndə qəlbimi qürur hissi bürüdü. Deməli, Vətən oğullarının hər döyüş növbəsi bu bayrağın ətrafında keçirilir. Əlində silah torpaqlarımızı qorumaq üçün döyüş postuna gedən əsgərlərin buradan qürurla addımladığına tamaşa etdikcə həyəcandan gözlərim yaşardı. Qeyri-ixtiyari təpənin zirvəsində ucalan bayrağımıza tamaşa etdim və mənə elə gəldi ki, dünyanın ən uca zirvəsindəyəm...***

Bəzən bayraqların yaranma tarixini arayıb axtaranda çox uzaqlara, elə millətlərin mövcud olduğu ilk dövrlərə gedib çıxırsan. Amma tarixdən məlumdur ki, qədim dövrlərdə qoşun və ordu başçıları hərbi yürüşlər zamanı bayraqlardan istifadə etmişlər. Bayraq məxsus olduğu dövlətin müstəqilliyini və şərəfini təmsil etdiyinə görə müqəddəs sayılır.

Azərbaycanda isə Dövlət bayrağı haqqında ilk rəsmi qərar 1918-ci ildə - Xalq Cümhuriyyəti dövründə verilib. Bir müddət Gəncədə, sonra isə Bakıda dövlət və hökumət qurumlarının binasında Azərbaycan bayrağı dalğalanıb.

Dövlət bayrağımız üçrəngli, aypara və səkkizguşəli ulduz təsvirlidir. Azərbaycan Milli Qurtuluş Hərəkatının banilərindən biri olan M.Ə.Rəsulzadə 1918-ci ildə Azərbaycan Parlamentinin yığıncağında demişdi: "Bizim qaldırdığımız bayrağın 3 rəngi türk milli mədəniyyətinin, müsəlman sivilizasiyasının və müasir Avropa demokratik əsaslarının simvoludur". Təəssüf ki, ilk müstəqil dövlətçiliyimizin ömrü çox qısa oldu, cəmi 23 ay. Amma müasir müstəqillik ənənələrimizin formalaşmasında həmin dövrün müstəsna əhəmiyyəti vardır. Təsadüfi deyil ki, Azərbaycan Silahlı Qüvvələrinin yaranma tarixi də o zamandan hesablanır. Bu, əlbəttə, dövlətin və xalqın öz tarixi keçmişini yaşatması, ənənələrini qoruyub saxlaması baxımından olduqca önəmlidir.

Ötən əsrin sonlarına yaxın dünyada baş verən mühüm ictimai-siyasi hadisələr, həmçinin, Sovet imperiyasının süquta uğraması bir çox xalqların müstəqilliyinə qovuşmasına zəmin yaratdı. Bu hadisələrin məntiqi nəticəsi olaraq 1988-ci ildən Azərbaycanda da milli xalq hərəkatı geniş vüsət aldı. O zaman ali məktəbdə oxuduğum illər idi və biz tələbələr də bu hərəkatın önündə gedirdik. İndiki Azadlıq meydanına toplaşan milyonlarla insanın başı üzərində dalğalanan üçrəngli bayrağımıza böyük həsədlə baxardıq. "Azadlıq" deyib hayqıran izdihamın içərisində bu bayraq necə möhtəşəm görünürdü. Nəhayət, Azərbaycan yenidən tarixi müstəqilliyinə qovuşdu. Amma müstəqillik aktımızdan əvvəl ilk dəfə Naxçıvanda, o vaxt bu




muxtar respublikanın rəhbəri olan ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə üçrəngli bayrağımız dövlət və hökumət idarələrində görünməyə başladı. Sonrakı dövrdə Azərbaycanın bütün guşələrində də Dövlət bayrağımız göründü. Əslində bayraq hər bir vətəndaşın qəlbində milli qürur hissi oyadan müqəddəs bir meyardır, dövlətin müstəqilliyinin və suverenliyinin mühüm rəmzidir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin müvafiq sərəncamı ilə paytaxtımızın uca və görməli yerində Dövlət Bayrağı Meydanı yaradıldı, eyni zamanda dövlət başçısının digər bir sərəncamı ilə 9 Noyabr Dövlət Bayrağı Günü təsis edildi. Hər il ölkəmizdə bu bayram əsl xalq təntənəsi ilə qeyd edilir. Əlbəttə, bayrağımıza göstərilən hörmət və ehtiram hər şeydən əvvəl gənc nəslin ali dəyərlərimiz əsasında formalaşmasına mühüm zəmin yaradır. Silahlı Qüvvələrimizin şəxsi heyəti də hər döyüş növbətçiliyini Dövlət bayrağımıza ehtiramını bildirərək başlayır. Yəni yuxarıda qeyd etdiyim döyüşçülərin təlimatlandırılması proseduru, bir qayda olaraq, bayrağımızın ucaldığı yerdə, yaxud əksi ifadə olunan rəsmi ritualların qarşısında keçirilir. Artıq hərbi hissələrimizdə dəyərli bir ənənə formalaşıb. Belə ki, komandirlərin şəxsi heyətlə iş üzrə müavinlərinin təşkilatçılığı ilə nəinki Dövlət Bayrağı Günündə, həmçinin, digər əlamətdar tarixi günlərdə şəxsi heyətin bölgələrdə yaradılmış Bayraq meydanına ziyarəti təşkil olunur. Şübhəsiz, belə tədbirlər hərbi qulluqçularımıza bayraq sevgisi aşılamaqla bərabər onu göz bəbəyi kimi qorumağın məsuliyyətini çatdırır.

Bu il Silahlı Qüvvələr Günü ərəfəsində Hərbi Dəniz Qüvvələrinin yenidən qurulmuş müasir inzibati bazasının açılışında iştirak edən Prezident, Ali Baş Komandan İlham Əliyev çıxışı zamanı hazırda Azərbaycanın uğurla, inamla inkişaf etdiyini bildirərək bir daha vurğulayıb ki, bizim əsas vəzifəmiz ərazi bütövlüyümüzü bərpa etməkdən ibarətdir. "Mən əminəm ki, güclənən Azərbaycan buna da nail olacaq və bizim milli bayrağımız Şuşada, Xankəndidə... qaldırılacaqdır. Hər bir Azərbaycan vətəndaşı bu müqəddəs günü öz işi ilə yaxınlaşdırmalıdır".

Azərbaycanın dövlət rəhbərliyi və xalqı tam əmin olmalıdır ki, bu gün hərbi potensialına görə bölgədə liderliyini qoruyub saxlayan Silahlı Qüvvələrimizin şəxsi heyəti üzərinə düşən tarixi vəzifəni uğurla icra etməyə tam qadirdir.

**"Azərbaycan Ordusu"**

# "Heç bir kənar qüvvə bizim siyasətimizə təsir edə bilməz"

***Noyabrın 4-də Prezident İlham Əliyev Şəki Məhkəmə Kompleksinin yeni inzibati binasının açılış mərasimindəki nitqində deyib: "Azərbaycan dünyada etibarlı tərəfdaş kimi öz rolunu oynayır. Bizim siyasətimizə çox böyük maraqla və rəğbətlə yanaşırlar. İlk növbədə ona görə ki, biz müstəqil xarici siyasət aparırıq və bizim siyasətimizin təməlində, bir daha demək istəyirəm, Azərbaycan xalqının iradəsi dayanır".***

Dövlətimizin başçısı vurğulayıb ki, heç bir kənar qüvvə bizim siyasətimizə təsir edə bilməz. Belə cəhdlər olub, var, düzdür azalır. Ancaq buna baxmayaraq, biz öz yolumuzla gedirik və nəticə də göz qabağındadır.

"Bu gün dünyada gedən proseslər, qanlı toqquşmalar, müharibələr artıq dünya gündəmini zəbt edir. Yəni, bu, adi hala çevrilir", - deyən Prezident İlham Əliyev əlavə edib ki, Azərbaycanda sabitliyi, təhlükəsizliyi qorumaq, möhkəmləndirmək doğrudan da çox təqdirəlayiq bir haldır. Bu şəraitdə müstəqil siyasət yürütmək, iqtisadi-sosial inkişafa nail olmaq onu göstərir ki, düzgün siyasət aparılır, xalq da bunu görür, bəyənir və seçkilərdə öz sözünü deyir.

Dövlətimizin başçısı qeyd edib ki, Azərbaycanda aparılan işlər və gələcəkdə planlarımızın reallaşması ölkəmizi daha da gücləndirəcək: "Mən gələcəkdə sosial və iqtisadi inkişafla bağlı heç bir ciddi problem görmürəm. Bizim maliyyə vəziyyətimiz, manatın məzənnəsi sabitdir, kifayət qədər valyuta ehtiyatlarımız var, bütün sosial layihələr - infrastruktur layihələri, tikinti-quruculuq işləri icra edilir".

**AZƏRTAC**

# Müdafiənin ön xəttində yerləşən bölmələrin hazırlığı yoxlanılıb

***Cəbhəboyu zonada yerləşən birlik, birləşmə və hərbi hissələrdə olan Müdafiə naziri general-polkovnik Zakir Həsənov, düşmənlə üzbəüz səngərlərdə döyüş növbətçiliyi aparan şəxsi heyətlə keçirilən görüşlərdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ordu qarşısında qoyduğu bir sıra tapşırıqları diqqətə çatdırıb.***

Müdafiə nazirliyinin rəhbərliyi cəbhədə müdafiə xəttinin dayanıqlığını, qoşunların atəş imkanlarını, ərazidə mühəndis-istehkam qurğularının vəziyyətini, postlar və mövqelərdəki şəxsi heyətin maddi-texniki təminatının təşkilini,



mənəvi-psixoloji durumunu, döyüş texnikası, silah-sursat və digər vasitələrin tam hazırlığını yoxlayıb.

General-polkovnik Zakir Həsənov ərazinin çətin relyefi və xüsusiyyətləri nəzərə alınmaqla şəxsi heyətin döyüş hazırlığına diqqətin daha da artırılması, döyüş növbətçiliyinin aparılmasında sayıqlığın gücləndirilməsi, verilən döyüş tapşırıqlarının istənilən anda, dəqiq və vaxtında yerinə yetirilməsi, o cümlədən müharibə zamanı bölmələrin döyüş hazırlığı vəziyyətinə gətirilməsi ilə əlaqədar komandir və rəis heyətinə müvafiq göstərişlər verib.

Müdafiə naziri çay süfrəsi arxasında əsgərlərlə səmimi söhbət edib, onların xidmətləri və qayğıları ilə maraqlanıb. Sonda nazir ön xətdə fərqlənən bir qrup hərbi qulluqçuya təşəkkür elan edib və qısa müddətli məzuniyyətlə mükafatlandırıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə naziri ABŞ Hərbi Dəniz Qüvvələri Katibi ilə görüşüb

***Noyabrın 7-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ABŞ Hərbi Dəniz Qüvvələrinin katibi Rey Maybusun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.***

Görüşdə bölgədəki hərbi-siyasi vəziyyət, beynəlxalq sülhməramlı missiyalarda uğurlu əməkdaşlıq, eləcə də hərbi təhsil, treninq və qarşılıqlı təcrübə mübadiləsi sahəsində məsələlər müzakirə olunub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Naxçıvan Muxtar Respublikasının Soyuq döyüş bölgəsində müasir əsgəri yaşayış kompleksi istifadəyə verilib

***Xalqın əmin-amanlıqda yaşaması, torpaqların etibarlı müdafiə olunması üçün güclü ordunun olması vacib şərtdir. Bu gün müstəqil Azərbaycanın peşəkar hərbçi kadrlardan ibarət, güclü maddi-texniki bazaya, müasir texnika və silahlara malik olan nizami ordusu var. Silahlı Qüvvələrimizin maddi-texniki təminatı ilbəil təkmilləşdirilir, şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırılır. Dövlətin diqqət və qayğısını daim öz üzərində hiss edən əsgər və zabitlər sərhədlərimizin keşiyində ayıq-sayıq dayanırlar.***

Son illər muxtar respublikanın etibarlı müdafiə təminatı ilə bağlı həyata keçirilmiş tədbirlər çərçivəsində yüzlərlə hərbi obyekt tikilərək və ya yenidən qurularaq istifadəyə verilib. Təmas xətti boyu mövqelərini gücləndirən Əlahiddə Ümumqoşun Ordunun ucqar və çətin dağlıq şəraitində yerləşən hissə və bölmələrində möhkəm müdafiə potensialı yaradılıb. Uca dağ silsilələrinin əhatəsində yerləşən Soyuq bölgəsi də muxtar respublikanın əsas müdafiə istehkamına və alınmaz qalasına çevrilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, noyabrın 5-də Soyuq bölgəsində yerləşən hərbi hissə üçün yeni əsgəri yaşayış kompleksi istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov Soyuq bölgəsinə gəlib, əsgəri yaşayış kompleksinin açılışında iştirak edib.

Azərbaycan Respublikası Müdafiə nazirinin müavini, Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev Ali Məclisin sədrinə raport verib.

Ali Məclisin sədri əsgərləri salamlayıb.

Azərbaycan Respublikası Müdafiə nazirinin müavini, Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev çıxış edərək deyib ki, bu gün Naxçıvanın etibarlı və dayanıqlı müdafiəsi üçün bütün zəruri tədbirlər görülür. Sərhədlərimizin toxunulmazlığını, torpaqlarımızın müdafiəsini təşkil edən qoşun birləşmələri müasir silah və texnikalarla təchiz edilib. Bu gün artıq Əlahiddə Ümumqoşun Ordu həm peşəkarlıq, həm də maddi-texniki bazasının üstünlüyü baxımından düşmənə göz dağıdır. Muxtar respublika ərazisindəki digər hərbi obyektlər kimi ucqar dağ silsiləsində yerləşən Soyuq bölgəsində də əsgər və zabitlərin məişət şəraiti yaxşılaşdırılıb. Çətin dağlıq şəraitində müasir əsgəri yaşayış kompleksinin istifadəyə verilməsi xalq-ordu birliyinin, əsgər və zabitlərə göstərilən qayğının daha bir ifadəsidir. Kərəm Mustafayev yaradılan şəraitə görə şəxsi heyət adından minnətdarlıq edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov Soyuq bölgəsində əsgəri yaşayış kompleksinin istifadəyə verilməsi münasibətilə şəxsi heyəti təbrik edərək deyib: "Bu gün ölkəmizdə bütün sahələr inkişaf etdirilir. Ordu quruculuğu sahəsində görülən işlər isə bu tədbirlər sırasında mühüm yer tutur. Çünki güclü və qüdrətli ordu ölkəmizin gələcəyinə xidmət edir. Bu gün dəniz səviyyəsindən 3 min metr yüksəklikdə yerləşən Soyuq bölgəsində xidmət keçən əsgər və zabitlərimiz Vətən torpağımızı, sərhədlərimizi etibarlı qoruyurlar. Ona görə ki, sərhədlərin etibarlı müdafiəsi Vətənin qorunması, sərhəddə sabitlik ölkədə sabitlik deməkdir. Sabitlik isə hər bir ölkədə inkişafın əsasını təşkil edir".

(Ardı 2-ci səhifədə)

# Azərbaycanın Müdafiə nazirinin Qazaxıstana rəsmi səfəri





***Noyabrın 4-də Qazaxıstan Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərlik etdiyi nümayəndə heyətinin bu ölkənin Müdafiə naziri cənab İmanqali Tasmaqambetov tərəfindən rəsmi qarşılanma mərasimi keçirilib.***

Protokola uyğun olaraq Müdafiə nazirləri fəxri qarovul dəstəsinin qarşısından keçiblər. Azərbaycanın və Qazaxıstanın dövlət himnləri səsləndirildikdən sonra nazirlərin təkbətək görüşü olub.

Nümayəndə heyətlərinin geniş tərkibdə keçirilən görüşündə vurğulanıb ki, Azərbaycan və Qazaxıstan xalqları müştərək tarixi-mədəni keçmişə malikdirlər. Ölkələrimiz arasında münasibətlər strateji xarakter daşıyır. Əməkdaşlığımız həm ikitərəfli formatda, eləcə də beynəlxalq və regional təşkilatlar çərçivəsində inkişaf edir. "Hazırkı mərhələdə diqqəti Azərbaycanın və Qazaxıstanın Hərbi Dəniz Qüvvələri arasında praktiki əlaqələrin qurulmasına yönəltmək vacibdir. Bu istiqamət Xəzər dənizində qonşuluq münasibətlərinin və təhlükəsizliyin möhkəmlənməsinə kömək edər. Bu, Xəzəryanı dövlətlərin rəhbərlərinin yüksək səviyyəli görüşlərdə əldə etdikləri razılığa da uyğundur", - deyə Qazaxıstanın Müdafiə naziri bildirib.

"Biz birgə təlimlərin keçirilməsinə hazırıq. Çünki Qazaxıstan ilə təlimlərin və yarışların keçirilməsi sahəsində təcrübəyə malikik. Bu cür tədbirlərin keçirilməsi Silahlı Qüvvələrimizin qarşılıqlı təcrübə əldə edərək yaxınlaşmasına xidmət edər", - deyə Azərbaycanın Müdafiə naziri vurğulayıb.

"Fürsətdən istifadə edib Sizi gələn il Astana şəhərində keçirilməsi planlaşdırılan "KADEKS-2016" Beynəlxalq Hərbi Texnika və Silah sərgisinə dəvət edirəm. Ümid edirəm ki, bu sərgidə iştirakınız ölkələrimiz arasında hərbi-texniki əməkdaşlığın inkişafına əlavə təkan verəcəkdir", - deyərək İ.Tasmaqambetov əlavə edib.

Görüşdə, ölkələrimiz arasında mövcud əlaqələrin əhəmiyyəti vurğulanıb, hərbi sahədə əməkdaşlığın inkişafı, təcrübə mübadiləsi və kadr hazırlığına xüsusi diqqət yetirilib, qarşılıqlı maraq doğuran digər məsələlərə dair ətraflı fikir mübadiləsi də aparılıb.

Yekunda Azərbaycan və Qazaxıstan Müdafiə nazirlikləri arasında 2016-cı il üçün əməkdaşlıq planı imzalanıb.

* * *

Qazaxıstan Respublikasına rəsmi səfəri davam edən Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov noyabrın 4-də Müdafiə Universitetində olub.

Müdafiə naziri Qazaxıstanın Silahlı Qüvvələri üçün kadr hazırlığını həyata keçirən ali hərbi təhsil müəssisəsinin təlim auditoriyalarında, kafedralarında, İmitasiya Modelləşdirmə Mərkəzində olub. General-polkovnik Zakir Həsənov fakültələrdə tədrisin təşkili ilə maraqlanıb və universitet haqqında təqdim edilən brifinqlə də tanış olub.

Azərbaycan ilə Qazaxıstan arasında hərbi təhsil sahəsində əməkdaşlığın genişləndirilməsi üçün böyük imkanların olduğu vurğulanan görüşdə qarşılıqlı təcrübə mübadiləsinin inkişaf etdirilməsinin, eləcə də müxtəlif mövzularda seminarların, kursların və digər tədbirlərin keçirilməsinin vacibliyi xüsusi qeyd olunub.

* * *



Qazaxıstan Respublikasına rəsmi səfəri çərçivəsində Müdafiə naziri general-polkovnik Zakir Həsənov noyabrın 4-də bu ölkənin hərbi sənaye kompleksinin aparıcı müəssisələrindən olan "Kazakhstan Aselsan Engineering"də olub.

Yüksək texnologiyaların tətbiqinə əsaslanan elektron-optik cihazların istehsalı sahəsində ixtisaslaşan müəssisənin fəaliyyəti ilə tanış olan nümayəndə heyəti məhsulların hazırlanması sahələrinə və sınaq sexlərinə də baxıb.

Sonra Azərbaycan Respublikasının Müdafiə naziri Qazaxıstan Silahlı Qüvvələrinin hərbi bazalarından birini ziyarət edib. Burada general-polkovnik Zakir Həsənov hərbi desant kompleksi, hərbi hissənin silah və texnika sərgisi ilə tanış olub. Müdafiə naziri şəxsi heyət tərəfindən nümayiş olunan binaya hücum, gecə və gündüz rejimində müxtəlif silahlardan atəş açma və maneələr zolağının dəf edilməsi məşqlərini də izləyib.

* * *

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Qazaxıstana rəsmi səfəri çərçivəsində noyabrın 5-də bu ölkənin Baş naziri cənab Kərim Məsimov ilə görüşüb.

Görüşdə ikitərəfli hərbi-texniki əməkdaşlığın inkişafı məsələləri müzakirə edilib, eyni zamanda ölkələrimizin Müdafiə nazirlikləri arasında əlaqələrin möhkəmləndirilməsində qarşılıqlı marağın olduğu bildirilib.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Naxçıvan Muxtar Respublikasının Soyuq döyüş bölgəsində müasir əsgəri yaşayış kompleksi istifadəyə verilib

**(Əvvəli 1-ci səhifədə)**

Ali Məclisin sədri deyib: "Ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu müstəqil ordu quruculuğu strategiyası bu gün ölkə Prezidenti tərəfindən uğurla davam etdirilir. Nəticədə ölkəmizdə ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər ardıcıl xarakter almışdır. Hər il yeni əsgəri yaşayış kompleksləri istifadəyə verilir, Silahlı Qüvvələrimiz ən müasir silah-sursatla təmin olunur, Azərbaycan Ordusunun döyüş qabiliyyəti artırılır. Bu gün ölkəmizdə ordu quruculuğu sahəsində görülən işlər dövlət müstəqilliyimizin qorunması ilə yanaşı, həm də işğal altındakı torpaqlarımızın azad edilməsinə xidmət edir. Artıq muxtar respublikada yerləşən ordu, hərbi hissə və birləşmələr sərhədlərimizi etibarlı qorumaqla yanaşı, həm də işğal altındakı torpaqlarımızı azad etməyə qadirdir".

Qeyd olunub ki, muxtar respublikada ordu quruculuğu uzun yol keçib. Ümummilli liderimiz Heydər Əliyev 1991-ci il sentyabrın 7-də muxtar respublikanın müdafiəsinin təşkili ilə bağlı qərar qəbul etmiş, mövcud hərbi dəstə və hissələrə vahid rəhbərliyi həyata keçirən Müdafiə Komitəsi yaradılmışdı. 1992-ci ildə isə muxtar respublika ərazisində əlahiddə gücləndirilmiş motoatıcı briqada təşkil edilib. Sonra briqada inkişaf edərək ordu korpusuna çevrilib və bunun da əsasında bölgədə güclü ordu olan Əlahiddə Ümumqoşun Ordu yaradılıb. Bu gün qarşı tərəf də bilir ki, Əlahiddə Ümumqoşun Ordu istənilən döyüş tapşırığını yerinə yetirməyə qadirdir.

Ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərin əsgər və zabitlər qarşısında mühüm vəzifələr qoyduğunu bildirən Ali Məclisin sədri deyib: "Göstərilən bu qayğı və diqqət əsgər və zabitlərin üzərinə mühüm vəzifələr qoyur. Şəxsi heyət xidməti nümunəvi təşkil etməli, müasir silah və texnikalardan istifadə qaydalarını öyrənməli, nizam-intizama əməl olunmalı, əsgər və zabitlərin döyüş qabiliyyəti daim artırılmalıdır".

Ali Məclisin sədri xidmətdə fərqlənən hərbi qulluqçuları qiymətli hədiyyələrlə mükafatlandırıb, xidməti fəaliyyətlərində fərqləndiklərinə görə şəxsi heyətə təşəkkür elan edib.



Hərbi hissənin zabiti Çingiz Hüseynov minnətdarlıq edərək deyib ki, muxtar respublikada ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər istər hakim yüksəkliklərdə, istərsə də daimi yaşayış məntəqələrinə yaxın ərazilərdə eyni səviyyədə aparılır. "Müasir yaşayış və xidmət şəraiti hər bir əsgər və zabitin döyüş ruhunu daha da artırır. Bu gün düşmənlə üzbəüz, ucqar dağlıq şəraitdə müasir şəraitin yaradılması bunu bir daha təsdiq edir. Şəxsi heyət bu qayğıdan daha da ruhlanır. Torpaqlarımız ayıq-sayıq müdafiə olunur".

Əsgər Əli Razimoğlu deyib ki, müstəqil Azərbaycan Ordusunda xidmət etmək şərəfdir. "Çünki ölkəmiz gün-gündən inkişaf etdikcə ordumuz da qüdrətlənir. Bu gün Soyuq bölgəsinin timsalında hissə və birləşmələrdə yaradılan müasir xidmət və məişət şəraiti əsgərlərin döyüş ruhunu və əzmkarlığını artırır. Digər tərəfdən müasir texnika və silahlarla təminat qüdrətli Azərbaycan Ordusunda xidmət keçən hər bir əsgərdə yüksək döyüş ruhu yaradır. Bu gün ərazi bütövlüyümüzü təmin etmək, işğal altında olan torpaqlarımızı azad etmək biz gənclərin öhdəsinə düşür. Ona görə də müasir silah və texnikanı dərindən mənimsəyir, döyüş hazırlığımızı yüksəldirik. Mövqelərimizdə daim ayıq-sayıq dayanmışıq".



Sonra Ali Məclisin sədri açılışı bildirən lenti kəsib, əsgəri yaşayış kompleksində yaradılan şəraitlə tanış olub.

Məlumat verilib ki, binada əsgər və zabitlər üçün yataq otaqları, məişət və ideoloji otaqlar, tibb otağı, mətbəx, yeməkxana, eləcə də komandir heyəti üçün xidməti otaqlar var. Yataqxanada əsgərlər üçün müasir sosial-məişət şəraiti yaradılıb. Yataq otaqları keyfiyyətli mebel dəstləri və digər lazımi avadanlıqlarla təchiz olunub. Hərbi hissənin yerləşdiyi ərazinin relyefinə və iqlim şəraitinə uyğun inşa olunan bina telefon, daimi işıq və istilik sistemi ilə təchiz edilib. Burada əsgərlərin asudə vaxtlarının təşkili üçün də hər cür şərait vardır. İdeoloji otaqda ümummilli liderimiz Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə ordu quruculuğu sahəsində həyata keçirdiyi tədbirlərdən bəhs edən məlumatların, o cümlədən hərbi nizamnamənin tələblərinin yazıldığı stendlər asılıb, qəzet və jurnallar, hərbi və bədii ədəbiyyatlar qoyulub.

Binanın foyesində fotoguşə və divar qəzeti hazırlanıb, televizor qoyulub. Hərbi hissənin anbarlarında kifayət qədər ərzaq və geyim ehtiyatı vardır. Binanın ətrafı da abadlaşdırılıb, su və elektrik xətləri çəkilib.

Ali Məclisin sədri şəxsi heyətlə nahar edib, onlarla xatirə şəkli çəkdirib.

Hərbi hissənin əhatə etdiyi postlarda olan Ali Məclisin sədri əsgər və zabitlərlə görüşüb, xidmətin təşkili ilə maraqlanıb.

Əsgərləri salamlayan Ali Məclisin sədri deyib: "Çətin dağlıq şəraitində yerləşən Soyuq bölgəsi muxtar respublikanın əsas müdafiə istehkamlarından biridir. Hələ 1918-1920-ci illərdə bu ərazilərdə torpaqlarımızın müdafiəsi təşkil olunmuş, könüllülərdən ibarət dəstələr postlar yaradaraq sərhədlərimizi qorumuşlar. Ötən əsrin 90-cı illərindən sonra isə burada müstəqil ölkəmizin əsgər və zabitlərinin xidməti təşkil olunmuşdur. Lakin o zaman bugünkü şərait yox idi. Əsgərlər öz xidməti fəaliyyətlərini çətin şəraitdə həyata keçirirdilər. Bu gün isə ölkəmizdə ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər Soyuq bölgəsində də nümunəvi xidmət şəraitinin yaradılmasına imkan vermişdir. Bu işlər gələcəkdə də davam etdiriləcəkdir. Çünki hərbi xidmətin düzgün təşkili əsgər və zabitlər üçün yaradılan rahat şəraitdən başlayır. Bu sahədə həyata keçirilən tədbirlər sırasında xalq-ordu birliyi mühüm yer tutur. Muxtar respublika sakinləri əsgərlərlə həmrəylik nümayiş etdirir. Bütün bunlar da şəxsi heyət qarşısında mühüm vəzifələr qoyur. Əsgər və zabitlər dostluq və birlik şəraitində xidmət etməli, torpaqlarımız etibarlı müdafiə olunmalıdır".



Əsgərlərdən İlkin Musayev, Nahid Məmmədov, Turan Yusifli, Toğrul Məmmədov, Mühit Əliyev və Babək Fətullazadə minnətdarlıq edərək deyiblər ki, Soyuq dağlarının uca zirvəsində Vətənimizin müdafiəsində dayanmaq ikiqat qürur və şərəfdir. "Azərbaycan əsgərinə göstərilən qayğını, əsgər adına verilən yüksək qiyməti bu gün Soyuq bölgəsinin timsalında görmək mümkündür. Yüksək dağlıq şəraitində xidmət etsək də, heç bir çətinlik çəkmirik. Burada şəxsi heyət üçün hər cür şərait yaradılıb. Hər il Ali Məclis sədrinin Soyuq bölgəsinə gələrək əsgər və zabitlərlə görüşməsi şəxsi heyətin böyük sevincinə səbəb olur. Bu görüşlər çətin iqlim və relyef şəraitində xidmət edən əsgərlərdə mübarizlik, qəhrəmanlıq hisslərini alovlandırır, şəxsi heyət arasındakı birlik və bərabərliyi daha da möhkəmləndirir. Dövlətimizin bizə göstərdiyi diqqət və qayğını minnətdarlıq hissi ilə qarşılayır, etimadı doğrultmağı ən yüksək amalımız kimi qəbul edir, hər bir döyüş əmrinə hazır olduğumuzu bildiririk".

Sonra Ali Məclisin sədri müşahidə məntəqəsində mövqelərimizin vəziyyəti ilə tanış olub. Azərbaycan Respublikası Müdafiə nazirinin müavini, Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev Ali Məclisin sədrinə müdafiənin ön xəttində xidmətin təşkili haqqında məlumat verib.

Bildirilib ki, hakim yüksəkliklərdə mühəndis təminatının məqsədyönlü şəkildə təşkil olunması Silahlı Qüvvələrə müdafiə və hücum əməliyyatları zamanı hərbi üstünlük qazandırır. "Buna görə də muxtar respublikanın bu cür dağlıq ərazilərində sərhədlərin müdafiəsinin təşkilinə xüsusi diqqət yetirilir. Ərazidə müşahidə məntəqələri yaradılıb, postlarda müasir silah və müdafiə qurğuları yerləşdirilib. Müşahidə məntəqələri, səngər və əlaqə yolları əlverişsiz hava şəraitinə uyğunlaşdırılıb. Postlar arasında dayanıqlı rabitə əlaqəsi və rahat gediş-gəliş imkanı vardır. Bu da xidmətin qarşılıqlı əlaqə zəminində təşkili baxımından mühüm əhəmiyyət daşıyır".

Qeyd olunub ki, təmas xəttində şəxsi heyətin döyüş hazırlığını daim yüksək səviyyədə saxlamaq vacib şərtdir. Xüsusilə dağlıq ərazilərin təbiətini və relyef xüsusiyyətlərini bilmək döyüş tapşırıqlarının icrasını dəqiq yerinə yetirməyə kömək edir. Təlimlər zamanı silahların təyinatı, onların taktiki-texniki xassələri və onlardan istifadə qaydaları ilə yanaşı, mürəkkəb dağlıq şəraitdə döyüş əməliyyatlarını düzgün aparmaq üçün lazımi təlimatlar da verilir. Bunun üçün əsgərlərə, ilk növbədə, yüksək dözümlülük, iqlim xüsusiyyətlərini bilmək və ona uyğunlaşmaq, təhlükəsizlik qaydalarına əməl etmək kimi mühüm amillər öyrədilir.

Ali Məclisin sədri Soyuq döyüş bölgəsində müdafiənin təşkili sahəsində həyata keçirilən tədbirlərin davam etdirilməsinin vacibliyini bildirib, ərazidə müdafiə mövqeyinin möhkəmləndirilməsi və şəxsi heyətin xidməti döyüş fəaliyyətinin yüksəldilməsi barədə tapşırıqlar verib.

Gətirilmiş müxtəlif ərzaq məhsulları, yun corab və şərflər anbarlara təhvil verilib.

# Hərbi sahədən yazan jurnalistlər üçün təlim kursları başlayıb

***Azərbaycanda hərbi sahədən yazan jurnalistlər üçün təlim kursları təşkil olunub.***



AZƏRTAC xəbər verir ki, bu barədə "Dinc Dünya" Araşdırmalar Mərkəzinin Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyələşdirdiyi, Mətbuat Şurası, Müdafiə Nazirliyi tərəfindən dəstəklənən "Ekstremal situasiyalarda işləyən jurnalistlərin psixoloji və təcrübi öyrədilməsi" layihəsi çərçivəsində keçirilən tədbirdə məlumat verilib.

Layihənin rəhbəri Əlsafa Mehdiyev bildirib ki, kurs Azərbaycan kütləvi informasiya vasitələri üçün ilk dəfə təşkil olunur. 2014-cü ilin avqustunda cəbhəyanı zonada gərginlik zamanı ölkə mediasının bu sahədə hazırlıqsızlığı üzə çıxdı. Layihə ekstremal şəraitdə işləyən jurnalistlərin özünü qoruması, düzgün informasiya alıb cəmiyyətə çatdırılmasının öyrədilməsi məqsədi daşıyır. Jurnalistlərin bu istiqamətdə təcrübə toplaması olduqca vacibdir. Layihə müddətində onlar hərbi jurnalistikanın incəliklərini öyrənəcəklər. Eyni zamanda, məqsəd mediada milli təhlükəsizliyə xələl gətirən informasiyalar yayılmasının qarşısının alınmasıdır.

Layihə çərçivəsində keçilən təlimlər hərbi sahəni işıqlandırmağın hüquqi-təcrübi-psixoloji normalarına, ekstremal jurnalistikanın qaydalar bazasının yaradılmasına, cəbhədən xəbərlər yayan jurnalistlərin peşəkarlığının artırılmasına yönələcək.

Təlimin nəzəri hissəsi Müdafiə Nazirliyinin Təlim və Tədris Mərkəzində, praktiki hissə isə poliqon şəraitində keçiriləcək. Əvvəlcə Təlim və Tədris Mərkəzində silah-sursatların taktiki-texniki xüsusiyyətləri öyrəniləcək, akkreditasiya qaydaları, son dövrün ekstremal jurnalistika təcrübəsi, müxbirin ekstremal şəraitdə davranış metodları tədris ediləcək.

Müdafiə Nazirliyinin poliqonunda təşkil ediləcək praktiki təlimdə isə döyüş meydanına oxşar şərait yaradılacaq və burada qarşıya çıxa biləcək təhlükəli vəziyyətlərdə davranış normaları, müşahidə aparmaq və informasiya toplamaq qaydaları öyrəniləcək.

Təlimə 50-dən çox jurnalistin cəlb olunması nəzərdə tutulur.

Məşğələlər Müdafiə Nazirliyinin zabit-mütəxəssis heyəti tərəfindən aparılacaq və iştirakçılara sertifikatlar təqdim olunacaq.

Bakı Dövlət Universitetinin (BDU) jurnalistika fakültəsinin professoru Cahangir Məmmədli, BDU-nun professoru Şirməmməd Hüseynov bildiriblər ki, ötən il cəbhədə baş verən hadisələr zamanı ictimaiyyətə yoxlanılmamış informasiyaların təqdim edilməsi və bəzi jurnalistlərin fəaliyyəti qənaətbəxş olmayıb. Professorlar jurnalistlərin ekstremal şəraitdə davranış və informasiya verilməsi qaydalarından, cəbhəyanı bölgədə özünümüdafiə məsələlərindən bəhs ediblər. Dövlət, millət, Vətən mənafeyini qorumağın müqəddəs borc olduğunu diqqətə çatdırıblar.

Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev Müdafiə naziri general-polkovnik Zakir Həsənovun KİV nümayəndələrinin cəbhəboyu zonada fəaliyyətinin tənzimlənməsi haqqında müvafiq əmrini xatırladıb. Bildirib ki, media cəmiyyətin inkişafı və formalaşmasında, ordu quruculuğunda mühüm rol oynayır. "Təqdim olunan layihə hərbi jurnalistika sahəsinə dair bütün məqamları əhatə edəcək. Media nümayəndələrinin hərbi jurnalistikaya meyil etməsi sevindiricidir. Lakin jurnalistlər hərbi sahədən yazarkən diqqətli olmalı, peşə və vətəndaşlıq borcuna vicdanla yanaşmalıdır", - deyən idarə rəisi hərbi jurnalistlərin formalaşması və yetişdirilməsi sahəsində Müdafiə Nazirliyinin QHT-lərlə, cəmiyyətlə, müvafiq təşkilatlarla əməkdaşlığı baxımından tədbirin əhəmiyyətini qeyd edib.

Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov deyib: "Ötən ilin avqustunda cəbhə xəttində yaranmış gərginlik zamanı media qurumlarının fəaliyyəti Mətbuat Şurasını da narahat edib. Hərbi məlumatlar yayan jurnalistlər bir çox məsələləri nəzərə almalıdırlar. Bu məsələ ilə bağlı dövlətimizin başçısı 2014-cü ilin sentyabrında cəbhəyanı zonada yerləşən jurnalistlərin davranış və məsuliyyətini tənzimləməklə bağlı sərəncam imzalayıb. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin iştirakı ilə jurnalistlərlə görüş keçirilib. Hərbi xəbərlərin verilməsində qanunvericilikdə də bir sıra dəyişikliklər edilib. Bu layihə Azərbaycanda hərbi sahədən yazan jurnalistlərimizin peşəkarlığının artırılmasına töhfə verəcək".

Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı qoşunların təmas xəttində yaranan gərginlik zamanı məlumatı ictimaiyyətə ilk mənbədən, dəqiq, müvafiq qurumla razılaşdırılmış şəkildə çatdırmağın vacib olduğunu vurğulayıb. Bu məqsədlə jurnalistlərin hərbi biliklərinin artırılması və hərbi qulluqçuların KİV-lərlə işləməsi ilə bağlı təlimat hazırlanaraq hərbi hissələrə göndərildiyi diqqətə çatdırılıb. Qeyd edilib ki, Müdafiə Nazirliyinin Mətbuat Xidməti informasiyanın mediaya ötürülməsi üçün zəruri işləri görür. Həmçinin, jurnalistlər hərbi hissələrə getmək üçün qeydiyyatdan keçirilir.

Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Rəhimoğlu son vaxtlar ordu quruculuğu sahəsində Müdafiə Nazirliyinin fəaliyyətini yüksək qiymətləndirib. Vurğulayıb ki, Azərbaycanın bir sıra informasiya agentlikləri dünyanın ən uzaq nöqtələrinə xəbər ötürmək imkanına malikdir. U.Rəhimoğlu xarici jurnalistlərin cəbhəboyu zonaya səfərlərinin təşkil edildiyini də diqqətə çatdırıb. Qeyd edib ki, Prezident İlham Əliyev jurnalistlərə hər zaman diqqət və qayğı göstərir. Bütövlükdə götürdükdə, Azərbaycan jurnalistikası hər zaman ordunun yanındadır.

Digər çıxış edənlər sosial şəbəkələrin, vətəndaş jurnalistikasının da informasiya yayılmasında məsuliyyətini qeyd edib, belə layihələrin hərbi jurnalistikaya marağın artması baxımından faydalı olmasından danışıblar.

Sonra təlimlərə start verilib.

# Azərbaycandakı xarici ölkələrin hərbi attaşeləri Hərbi Dəniz Qüvvələrinin bazasında olublar





***Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən, noyabrın 5-də xarici dövlətlərin Azərbaycanda akkreditə olunan hərbi attaşeləri Hərbi Dəniz Qüvvələrinin bazasında olublar.***

Hərbi gəmilərin daimi yerləşmə məntəqəsinə gələn qonaqları Hərbi Dəniz Qüvvələrinin rəhbərliyi qarşılayıb və hərbi hissənin qərargahı qarşısında ucaldılmış ümummilli liderimiz Heydər Əliyevin abidəsi ziyarət olunub.

Hərbi attaşelərə Hərbi Dəniz Qüvvələrinin yaranması və inkişaf tarixi barədə brifinq təqdim olunub. II dərəcəli kapitan İftixar Dadaşov tərəfindən qonaqlar ətraflı məlumatlandırılıb.

Brifinqdə çıxış edən birinci dərəcəli kapitan Şahin Məmmədov bildirib ki, Hərbi Dəniz Qüvvələrinə dövlətimizin göstərdiyi diqqət və qayğı göz qabağındadır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Hərbi Dəniz Qüvvələrinin yeni bazasının açılışında çıxış edərkən demişdir: "Xəzər - sülh, əməkdaşlıq dənizidir. Azərbaycan dövlətinin mövqeyi bundan ibarətdir. Xəzəryanı ölkələr arasında mövcud olan dostluq, əməkdaşlıq münasibətləri Xəzərdə sülhün, təhlükəsizliyin qarantıdır".

Birinci dərəcəli kapitan qeyd edib ki, Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov hərbi gəmilərin hazırlığı ilə dəfələrlə tanış olub, onların taktiki-texniki xüsusiyyətləri, silahlanması, düşmənə qarşı mübarizə vasitələrinin vəziyyəti ilə maraqlanıb. Müdafiə naziri Hərbi Dəniz Qüvvələrinin döyüş hazırlığının daha da artırılması, o cümlədən gəmi heyətlərinin sosial-məişət şəraitinin yüksəldilməsi barədə müvafiq tapşırıqlarını verib.

Hərbi gəmilərin taktiki-texniki xüsusiyyətləri, silahlanması, düşmənə qarşı mübarizə vasitələrinin vəziyyəti ilə tanış olan qonaqlara komanda məntəqələri, təhlükəsizlik sistemi, naviqasiya və s. vacib məsələlər barəsində ətraflı məlumat verilib.

Əsgər yeməkxanaları və yataqxanaları, hamam-camaşırxana şəraiti və əsgər yeməkləri ilə tanış olan attaşelər yaradılan şəraitdən məmnun qaldıqlarını ifadə ediblər.

İran İslam Respublikasının ölkəmizdəki hərbi attaşesi polkovnik Əmir Fərəci müasir standartlara cavab verən komanda məntəqəsinin, əsgərlərin məişət şəraitinin yüksək səviyyədə olmasından söz açıb.

- Azərbaycan Silahlı Qüvvələrinin inkişafı diqqətəlayiqdir. Müasir standartlara cavab verən bu hərbi hissənin istənilən döyüş tapşırığını yerinə yetirməyə qadir olduğuna şübhə yoxdur. Çünki hərbi hissə tamamilə elektron avadanlıqlarla təchiz edilib, gəmilərdə müasir texnologiyalardan istifadə olunur. Ən çox diqqətimi çəkən isə səliqə-sahman, təmizlikdir. Əsgər yeməkxanası, yataqxanalar abad və səliqəlidir. Həqiqətən də, şahidi olduğumuz yeniliklər hər birimizdə heyrət doğurur. Hər şey çox yaxşıdır, - deyə iranlı hərbi attaşe bildirib.

Sonda hərbi attaşelər xatirə şəkli çəkdirərək tədbirin yüksək səviyyədə təşkilinə görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

**Baş leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Təmas xəttində monitorinq keçirilib

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq noyabrın 5-də Tərtər rayonu ərazisindəki qoşunların təmas xəttində monitorinq keçirilib.

Monitorinqi Azərbaycan tərəfdən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Jiri Aberle və Saymon Tiller keçiriblər.

Təmas xəttinin qarşı tərəfində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Yevgeni Şarov, Xristo Xristov və Piter Svedberq keçiriblər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***7 noyabr 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 103 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber, Noyemberyan rayonunun Dovex kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı, Kəmərli kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Talış, Gülüstan, Tərtər rayonunun Yarımca, Çiləbürt, Ağdam rayonunun Şıxlar, Cəvahirli, Kəngərli, Sarıcalı, Novruzlu, Şuraabad, Qaraqaşlı, Mərzili, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 109 dəfə atəş zərbəsi endirib.

# Mətin müdafiəçilər



Hərbi bölmədə ilk həmsöhbətim Silahlı Qüvvələrimizdə xidmət etmiş zabit, şair Mustafa Mustafayev. Zabitin ürək sözləri də sərhədlərimizin keşiyində dayanan igidlərin misilsiz xidmətlərindən, ölkəmizdə orduya göstərilən diqqət və qayğıdan oldu. Ehtiyatda olan zabit ötən illərlə müqaisədə ordu quruculuğunda böyük uğurlara imza atıldığını və bu islahatların qətiyyətlə davam etdirildiyini bildirdi. Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasətin sayəsində ölkəmizin dünya dövlətləri sırasında layiqli yer tutmasından məmnunluğunu vurğuladı.

Xalqımızın güvənc yeri olan Silahlı Qüvvələrimizin möhkəmləndirilməsinə, hərbi potensialının daha da artırılmasına diqqət çəkən zabit ordunun fəailiyyətində, döyüş hazırlığının yüksəldilməsi istiqamətində atılan addımlara görə Müdafiə Nazirliyinin rəhbərliyinə ictimaiyyət adından minnətdarlığını bildirdi. Həyata keçirilən bütün məqsədyönlü tədbirlər xalqımız tərəfindən böyük rəğbətlə qarşılanır. İnanırıq ki, işğal altında olan torpaqlarımızın azad ediləcəyi gün uzaqda deyil.

Həmsöhbətimlə sağollaşıb "N" hərbi hissəsinə gəlirəm. Təcrübəli zabit Elmar Zeynalabdinov şəxsi heyətin qarşıya qoyulan döyüş tapşırıqlarına müntəzəm əməl etdiyini, düşmən tərəfindən təxribatların qarşısının vaxtında alındığını və cavab atəşləri ilə susdurulduğunu bildirir.

Bir daha əmin oluruq ki, igid Vətən müdafiəçiləri sərhədlərimizin keşiyində mətin dayanıblar. Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin cəbhə bölgələrinə səfərləri, ordu rəhbərliyinin tez-tez hərbi hissə və birləşmələrdə olması, ön xətdə əsgər və zabitlərlə keçirilən görüşlər əsgəri xidmətdə olan gənclərin döyüş ruhunu, qələbə əzmini artırır.

Keçirilən mədəni-kütləvi tədbirlər də şəxsi heyətin vətənpərvərlik hissini yüksəldir. Hər bir kəs qədim yurdumuzun tarixindən xəbərdar olmalı, görkəmli hərb xadimlərini, dahi şəxsiyyətləri tanımalıdırlar. Qürurla demək olar ki, Silahlı Qüvvələrimizdə şanlı hərb tariximizin görkəmli nümayəndələrinin davamçıları yetişib.

Zabit Elmar Zeynalabdinov vurğulayır ki, taleyini ordu həyatı ilə bağlayan, hərbçi peşəsini seçən insanların xidmətləri həmişə dövlətimiz və ordu rəhbərliyi tərəfindən yüksək qiymətləndirilir. Ötən günlər hərbi qulluqçularımızdan Zahid Allahverdiyev, Rauf Zalıyev, Vidadi Şamilov, Əzim Əliyev, Azər Poladov, Əmir Abbasov, Anar Nəzərov, Ruslan İsmayılov, gizirlərdən Ayaz Həsənov, Heydər Carçıyev, Əfsun Orucov, Elxan Həsənov, Müşfüq Həsənov və başqaları müxtəliv medallara laiq görülüblər.

Baş gizir Əfsun Orucov bir neçə ildir ki, xidmətdədir. Həmişə təcrübəli, nizam-intizamlı hərbçi kimi tanınıb.

- Ana Vətənə xidmət etmək böyük şərəfdir, - deyir gizir. - Bu şərəfə nail olmaq hər yetənə nəsib olmur. Çalışırıq ki, Vətənimizin ərazi bütövlüyünün təmin edilməsi üçün öhdəmizə düşən vəzifələri fədakarlıqla yerinə yetirək. Bildiyiniz kimi bütün cəhətlərdən biz düşməndən qat-qat güclüyük. Bizi güclü-qüvvətli edən hər şeydən əvvəl Vətənə, torpağa olan məhəbbətimizdir.

Çavuş Elbrus Məmmədov silahdaşının dediyi ilə həmrəy olduğunu bildirir:

- İşğal altında olan torpaqlarımızın azad edilməsi qarşımızda duran ən böyük vəzifə, vətəndaşlıq borcumuzdur. Buna görə də çalışırıq ki, döyüş təcrübəmizi təkmilləşdirək, vaxtdan səmərəli istifadə edək və ötən hər günü qələbə yolunda irəliyə addım kimi başa vuraq. Silahdaşları Pərviz Məmmədov, Müşfiq Musayev, Həmid Alıyev, Məhəd Əliyev, Şahbaz Hüseynov və başqaları da Vətən andına həmişə sədaqətli olacaqlarını söylədilər.

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyənin 22 kəndində fövqəladə vəziyyətdir



Türkiyənin Diyarbəkir bölgəsində yerləşən 22 kənddə fövqəladə vəziyyət elan olunub. Rəsmi məlumata görə, noyabrın 4-də yerli vaxtla saat 17.00-dan başlayaraq fövqəladə vəziyyət ərazisində küçəyə çıxmaq qadağan edilib. Keçirilən antitterror əməliyyatının nəticəsi barədə ətraflı məlumat veriləcəyi bildirilir. Qeyd edək ki, Türkiyə parlamentinə seçkilər dövründə bir qrup terrorçu fövqəladə vəziyyət rayonunda yollara çıxaraq zor tətbiq etməklə vətəndaşlardan sənəd tələb edərək qanunsuz yoxlamalar aparıb.

## İtaliya Milli Birlik və Silahlı Qüvvələr Gününü qeyd edir



İtaliyada Milli Birlik və Silahlı Qüvvələr Günü qeyd olunur. Bu münasibətlə Romada keçirilmiş tədbirdə iştirak edən İtaliya Prezidenti Sercio Matarella naməlum əsgər abidəsinin önünə əklil qoyub. Tədbirə qatılan dövlət və hökumət rəsmiləri, Romada akkreditə olunmuş diplomatik korpusun nümayəndələri və turistlər İtaliya Hərbi Hava Qüvvələrinə məxsus qırıcı təyyarələrin bu ölkənin bayrağının rənglərini simvolizə edən tüstü ilə uçuşunu maraqla izləyiblər. C.Matarella İtaliya Silahlı Qüvvələrinin ölkəyə sədaqətlə xidmət etdiyini, İtaliyanın suverenliyinin və ərazi bütövlüyünün qorunmasında əvəzsiz rol oynadığını bildirib. Qeyd edib ki, müxtəlif ölkələrdə sülhməramlı əməliyyatlarda iştirak edən italiyalı hərbçilər böyük fəallıq göstərirlər. O deyib: "İtaliya öz ordusuna tam güvənə bilər".

## Misirdə azı 11 nəfər daşqınların qurbanı olub



Misirdə azı 11 nəfər leysan yağışların və daşqınların qurbanı olub. Yerli KİV-lər xəbər verirlər ki, Buheyrə əyalətində 8 nəfər suda batıb. Onların evlərini gecə vaxtı sürətlə artan su basıb. Daha üç nəfər isə elektrik cərəyanı vurması nəticəsində dünyasını dəyişib.

İsgəndəriyyə əyaləti də su altında qalıb, burada yağıntılar noyabrın 3-dən səngimək bilmir. Regionun paytaxtında avtomobil yollarını su basıb, maşınların keçməsi üçün nəzərdə tutulan bir çox tunel və magistrallar bağlanıb. Sinoptiklərin məlumatına görə, yaxın vaxtlarda ölkə ərazisində temperaturun aşağı düşməsi və leysan yağışlar gözlənilir.

## Rumıniyanın Baş naziri istefa verir



Rumıniyanın Baş naziri Viktor Ponta hökumətin yerləşdiyi Viktoriya sarayında istefa verəcəyini bəyan edib. Baş nazirin istefasına Buxarestin "Kollektiv" klubunda bir çox insanın ölümü və xəsarət alması ilə nəticələnmiş yanğından sonra 15 min vətəndaşın Buxarestin mərkəzi küçələrində etiraz aksiyası keçirməsi səbəb olub.

Etirazçılar Baş nazir Viktor Pontanın, Baş nazirin müavini Qabriel Opreanın, klubun yerləşdiyi 4-cü sektorun (rayonun) icra başçısı Cristian Piedonenin istefasını tələb ediblər. Viktor Ponta yeni hökumət yaradılanadək vəzifəsini icra edəcəyini bildirib. Xatırladaq ki, "Kollektiv" klubunun sahibləri həbs olunub. Hadisə ilə bağlı istintaq davam edir.

## Dünya Bankı Aral gölünün bərpasına 38 milyon dollar vəsait ayırıb



Dünya Bankı Aral gölündəki qurumanın Mərkəzi Asiya ölkələri üçün yaratdığı iqlim dəyişikliyinə və ətraf mühitə verdiyi zərərə görə 38 milyon dollar vəsait ayırdığını açıqlayıb. Bankın Daşkənddəki nümayəndəliyindən edilən şərhdə, bu vəsaitin 9 milyon dollarının Tacikistandakı və 14 milyon dollarının Özbəkistandakı layihələrdə istifadə olunacağı bildirilir. Qalan 15 milyon dollar isə Beynəlxalq İcra Komitəsinin layihələrində istifadə olunacaq və bölgədəki digər ölkələr iki il müddətinə bu proqrama daxil ediləcək. 1960-cı illərdən etibarən qurumağa başlayan Aral gölü 90 faiz kiçilərək iki hissəyə bölünüb.

## Rusiyada Xalq Birliyi Günü qeyd olunub




Rusiyada Xalq Birliyi Günü qeyd olunub. Bu bayram 1612-ci ildə Moskvanın yadelli işğalçılardan azad olunması şərəfinə 2005-ci ildə təsis edilib. Bayram münasibəti ilə Rusiyanın bir çox şəhərlərində dövlətçiliyin tarixinə, ölkə xalqlarının adət-ənənələrinə həsr olunmuş nümayişlər, mitinqlər, konsertlər keçirilib, teatrlaşdırılmış səhnəciklər göstərilib.

## Cənubi Sudanda yük təyyarəsinin qəzaya uğraması nəticəsində 41 nəfərin həlak olduğu bildirilir



Rusiya ekipajının idarə etdiyi An-12 yük təyyarəsi Cənubi Sudanın paytaxtı Cuba şəhərində havaya qalxdıqdan bir qədər sonra aeroportdan 800 metr aralıda qəzaya uğrayıb.

RİA Novosti informasiya agentliyi xəbər verir ki, şahidlərin sözlərinə görə, təyyarənin yerə çırpılması nəticəsində ən azı 41 nəfər həlak olub. Bunu adının açıqlanmasını istəməyən yerli polis nümayəndəsi də təsdiqləyib. Həyatını itirənlərin bir qismi təyyarənin heyət üzvü və sərnişinləri, bir qismi isə qəza yerində olan yerli əhalidir.

Prezidentin mətbuat katibi Vek Ateni təyyarədə 20-yə qədər insanın ola biləcəyini deyib. İlkin məlumata görə qəzaya uğramış təyyarədə biri uşaq olmaqla, iki nəfər sağ qalıb.

**AZƏRTAC-ın materialları əsasında**

9 Noyabr Dövlət Bayrağı Günüdür

# Bayrağımız həmişə qürurla dalğalanacaq

***İstiqlal savaşında Şükrü Paşanın bir vəsiyyəti olub: "Düşmən sərhədlərimizi keçəndən sonra ölsəm məni dəfn etməyin, qoy ətimi itlər parçalasın. Düşmən sərhədlərimizi keçməmiş şəhid olsam sabunum, kəfənim çantamdadır". O kəfən Paşa olsa da, özünü əsgər hesab edən türkün "canım bayrağım!"- dediyi bayrağıydı...***



Dövlətçilik atributlarından biri olan bayrağa həmişə saygı olub. Dağlıq Qarabağda döyüşlər gedən vaxtlarda neçə-neçə şəhidin sinəsində qana bələnmişdi bayrağımız; onlar o bayraq naminə, o bayrağın ucalığı uğrunda vuruşurdu, o bayrağın müqəddəsliyini yaşatmaq üçün şəhid olmuşdu. Bunlar indi tarixə dönüb.

Tarixə dönmüşləri xatırlamaq sabahlara sayğıdı...

Onsuz da Vətənini sevənlərin dövlət atributlarına qədərsiz sayğısı olur. Bayrağa daha həssaslıqla. Dövlət Bayrağı Günü hamının mənəvi dünyasının səyyarəsinə çevrilib. Mülki vətəndaşlar da, hərbçilər də bayrağı bu günün işığını sabahlara aparan yola mayak bilir...

Gəncədə tam artilleriya generalı Səməd bəy Mehmandarovun 160 illiyinə həsr olunmuş tədbirdə Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblının üzvlərinin ifasında bir rəqs də təqdim olundu. Rəqsin piramida - qala şəkilli sonluğu hamını duyğulandırdı: rəqqas sinəsindən bayraq çıxardaraq dalğalandırdı. Bu görüntünün yozumu, əslində, xalqın istəyidi: bayrağımız işğaldan azad edəcəyimiz torpaqlarımızda da dalğalanacaq!

Bayrağımız amalımızın rəmzidir!

Dövlət Bayrağı Günü Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində də böyük sevgilərlə qeyd edildi...

Polkovnik-leytenant Mikayıl Hüseynov bayrağın mahiyyətindən, bayrağımızı şərtləndirən rənglərdən söz açaraq Bayraq Gününün hərbçilər üçün əziz olduğunu qeyd etdi. Qürurla, fəxrlə bildirdi ki, məzunlarımız Silahlı Qüvvələrimizdə nümunəvi xidmətləri ilə doğma təhsil ocağının şöhrətini yaşadırlar. Dövlət Bayrağımızın müqəddəsliyini yaşatmaq kursantlarımızın da həyat amalıdır...

1-ci dərəcəli kapitan Tərlan Seyfullayev kursantların hərbi bilikləri həvəslə öyrəndiklərini, dövlətçilik rəmzlərinə, bu sıradan bayrağa olan sayğılarını, qeyd edərək bildirdi ki, kursantlarımız da bayrağımızın işğaldan azad olunacaq torpaqlarımızda dalğalanacağı günün həsrətindədi...

Kursantlar çıxışları böyük həvəslə dinlədilər. Bu həvəs bayrağımıza sevginin təzahürüydü. Hərbçi peşəsinin incəliklərinə belə bir sevgiylə yiyələnənlər, təbii ki, sülh danışıqları baş tutmasa, Ali Baş Komandanın əmriylə torpaqlarımızı işğaldan azad etməyə onlar da gedəcək. Əsgər kimi!..

Sonda Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblının kursantlara təqdim etdiyi mahnılar da, rəqslər də bir amalın tərcümanıydı. "Dövlətimiz var, dövlətçiliyimiz əbədidir, dövlət bayrağımız həmişə qürurla dalğalanacaq!.."

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

---

***Hər bir xalqın ən müqəddəs rəmzlərindən olan bayraq onun varlığının, mövcudluğunun sübutu, dövlət qurmaq və ona sahib çıxmaq bacarığının əsas göstəricisidir. Odur ki, özünütəsdiq simvolu olan bayraq bütün dünyada qürur və güvənc yeri sayılır. Bayraq həm də dövlətin və xalqın kimliyinin, apardığı azadlıq mücadiləsinin təfəkkür və düşüncə tərzinin, mənəvi dünyasının ən şəffaf və dəqiq meyarıdır.***

Bu günlərdə ölkəmizin hər yerində olduğu kimi, Silahlı Qüvvələrimizin hərbi hissə və birləşmələrində, həmçinin xüsusi təyinatlı təhsil müəssisələrində də Dövlət Bayrağı Günü böyük təntənə ilə qeyd edilir. Müdafiə Nazirliyinin Təlim və Tədris Mərkəzi və Cəmşid Naxçıvanski adına Hərbi Liseyin şəxsi heyəti bu əlamətdar günü birlikdə ruh yüksəkliyi ilə qeyd etdi. Tədbirdə Təlim və Tədris Mərkəzinin, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin rəhbərliyi, zabit-müəllim və kursant heyəti, habelə tədbirə qonaq gəlmiş Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının nümayəndələri iştirak edirdilər. Əvvəlcə ümummilli lider Heydər Əliyevin və şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edildi. Dövlət himni oxundu.

Cəmşid Naxçıvanski adına Hərbi Liseyin şəxsi heyətlə iş üzrə müavini polkovnik Rəhim Səmədov tədbirdə geniş məruzə ilə çıxış edərək bildirdi ki, Dövlət Bayrağı Günü xalqımızın həyatında qeyd olunan əlamətdar günlərdən biridir. "1990-cı il noyabrın 7-də ümummillii liderimiz Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi üçrəngli bayrağı muxtar respubliknın dövlət bayrağı kimi qəbul etmiş və Azərbaycan SSR Ali Soveti qarşısında həmin bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırmışdı. Möhtərəm Prezidentimiz İlham Əliyevin bayrağa xitabən dediyi "Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir" sözləri adamı riqqətə gətirir. Azərbaycan bayrağı bu gün dünya dövlətlərinin bayraqları ilə yanaşı BMT qarşısında dalğalanır. Bayrağımız yüksələndə və Azərbaycan Respublikasının himni səslənəndə hər bir Vətən övladı duyğulanır, azərbaycanlı olduğumuz üçün qürur hissi keçiririk. Hər bir azərbaycanlı bayrağımızı göz bəbəyi kimi qorumalıdır. Biz əminik ki, üçrəngli bayrağımız tezliklə əzəli və əbədi torpaqlarımızda dalğalanacaqdır", - deyə polkovnik əmin olduğunu vurğuladı ki, gənc nəsil, o cümlədən kursantlarımız hər zaman bayrağımıza böyük ehtiramlarını nümayiş etdirəcəklər.



Sonra kursantlar çıxışlarında bildirdilər ki, bayraq dövlətin bütövlük, müstəqillik, yenilməzlik, ucalıq, bir sözlə, müqəddəslik rəmzidir. "Biz bilirik ki, 2003-cü ildə Hərbi Liseyin 30 yaşı tamam olanda ulu öndər Heydər Əliyev liseyə döyüş bayrağını əmanət kimi verdi. Hər addımda siyasi iradə nümayiş etdirən hörmətli Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında üçrəngli bayrağımız çox keçməz ki, Xankəndinin mərkəzi meydanında, Şuşa qalasının başı üzərində əzəmətlə dalğalanacaqdır".

Tədbirdə iştirak edən Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının nümayəndəsi Xoşqədəm Bağırova bu əlamətdar gün münasibəti ilə konfederasiyanın rəhbərliyi adından mərasim iştirakçılarını təbrik etdi. "Siz bizim ordumuzun gələcəyisiniz. Doğma ordumuzun sıralarını artırmaq, möhkəmləndirmək, Vətəni qorumaq sizin üzərinizə düşür", - deyən Xoşqədəm xanımın açıqlamasına görə, 15 ildir ki, liseyi mədəni hamiliyə götürmüş Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası ilin yekunları üzrə yaxşı qiymətlərlə oxuyan və liseyin ictimai həyatında fəal iştirak edən kursantları hər il mükafatlandırır. Liseyin rəisi polkovnik Rüfət Əmirov AHİK-in diplomlarını və pul mükafatlarını əlaçı kursantlara təqdim etdi.

Tədbir Mədəniyyət və İncəsənət Universitetinin tələbələri tərəfindən hazırlanmış konsert proqramı ilə sona çatdı.

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**
**foto**
**kiçik çavuş**
**Namiq PƏNAHOVUNDUR**

---



Bayrağımızı daim uca tutmaq üçün nə qədər mübarizələrdən keçmişik. Şəhid qanı ilə suvarılan məmləkətimizin başı üzərində dalğalanan üçrəngli bayrağımız müstəqilliyimizin və suverenliyimizin rəmzidir. Bu bayrağı qoruyub uca tutmaqla Babəkdən, Cavanşirdən, Şah İsmayıl Xətaidən gələn dövlətçilik ənənələrimizi qoruyub saxlamışıq. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlətçiliyimizin möhkəmlənməsində müstəsna xidmətləri olub. Dahi rəhbərin siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev 2007-ci ilin noyabrında Dövlət Bayrağı Meydanının yaradılması haqqında sərəncam imzalayıb. 9 noyabr 2010-cu ildə - Dövlət Bayrağı Günündə dövlətimizin başçısı Dövlət Bayrağı Muzeyinin açılışında iştirak edib. Bundan sonra hər il ölkəmizdə 9 Noyabr Dövlət Bayrağı Günü kimi qeyd olunur.

Ölkəmizin hər yerində olduğu kimi, Silahlı Qüvvələrdə də Dövlət Bayrağı Günü böyük təntənə ilə qeyd edilir. Ənənəyə uyğun olaraq həmin gün hərbi qulluqçularımız paytaxtda və bölgələrdə Dövlət Bayrağı Meydanlarını ziyarət edirlər. Bu günlərdə Hərbi Polis İdarəsinin bir qrup şəxsi heyəti də Dövlət Bayrağı Muzeyində olub. Hərbi Polis İdarəsi rəisinin şəxsi heyətlə iş üzrə müavini polkovnik-leytenant Dəyanət Allahyarov söhbətimizdə bildirdi ki, qarşıdan gələn Dövlət Bayrağı Günü münasibətilə Hərbi Polis İdarəsinin rəisi polkovnik Azad Ağayevin əmri ilə tabelikdə olan bölmələrdə bu əlamətdar günün yüksək səviyyədə qeyd edilməsi üçün tədbirlər keçirilir.

Dövlət Bayrağı Muzeyində hərbçiləri buradakı eksponatlarla muzeyin direktor müavini Samir Hüseynov tanış etdi. O bildirdi ki, azərbaycanlı memar və dizaynerlərin layihələri əsasında qurulan və tərtibatında müasir dizayn texnologiyalarından istifadə olunan muzeydə müxtəlif dövrlərdə Azərbaycan ərazisində mövcud olmuş dövlətlərin, xanlıqların bayraqları nümayiş olunur. Burada həmçinin XVII-XVIII əsrlərə aid bayraqların uc elementləri, gerblər, Azərbaycan Respublikasının müxtəlif illərdə qəbul olunmuş Konstitusiya nüsxələri də vardır. Muzeydə poçt markaları, pul nişanlarının nümunələri, orden və medallar, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan dövlətinin yaranması, formalaşması və inkişafını, Prezident İlham Əliyevin ölkəmizin tərəqqisi ilə bağlı fəaliyyətini əks etdirən çoxsaylı fotolar və sənədlər nümayiş etdirilir.

Hərbi qulluqçular Silahlı Qüvvələrin Ali Baş Komandanının bayrağı, müxtəlif qoşun növlərinin döyüş bayraqları və mərasim geyimləri ilə tanış olublar.

Dövlət Bayrağı Muzeyinin direktor müavini daha sonra bildirib ki, dünyanın nadir muzeylərindən biri olan Dövlət Bayrağı Muzeyində, həmçinin, Ginnes dünya rekordları təşkilatının Azərbaycanın Dövlət bayrağı dirəyinin dünyada ən hündür bayraq dirəyi olduğunu təsdiq edən sertifikatı, müxtəlif kitablar, fotoşəkillər, 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin Türkiyədəki səfirliyinin binası üzərində dalğalanmış bayraq da nümayiş olunur. Buradakı eksponatların çoxu ilk dəfə nümayiş etdirilir.

Dövlət Bayrağı Muzeyinə səyahət hərbi qulluqçularda xoş əhval-ruhiyyə doğurub.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

---

# Qəhrəmanın xatirəsinə ehtiram




***Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi başlayanda minlərlə Vətən övladı torpaqlarımız uğrunda ölüm-dirim savaşına qalxdı. Onlar Vətən andına sadiq qalıb mərdliklə döyüşdülər. Yüzlərlə Vətən övladı ən yüksək ada - Milli Qəhrəman adına layiq görüldü. Onlardan 8 nəfəri C.Naxçıvanski adına Hərbi Liseyin məzunu, bir nəfəri isə liseyin zabitidir. Bu təhsil ocağında qəhrəmanların anım günlərinin qeyd edilməsi artıq ənənə halını alıb.***

Bu günlərdə liseyin məzunu, Milli Qəhrəman Əfqan Hüseynovun xatirəsinə həsr olunan futbol turnirinin möhtəşəm açılışı olub. Tədbir əvvəlcə fədakar döyüşçünün Şəhidlər xiyabanındakı məzarının ziyarəti ilə başlayıb. Qəhrəmanın doğmaları, liseyin kursant və müəllim heyəti məzarın önünə gül dəstələri düzüblər.

Azərbaycan Respublikası Prezidentinin 15 yanvar 1995-ci il tarixli fərmanı ilə Əfqan Qaraxan oğlu Hüseynova ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib. Onun Milli Qvardiyanın qərargahında büstü qoyulub.

Sonra tədbir futbol meydançasında davam edib. Havanın soyuq, küləkli olmasına baxmayaraq qonaqlar, azarkeşlər, oyunçular açılış mərasiminin başlanmasını səbirsizliklə gözləyirlər. Mərasimə Milli Qəhrəmanın həyat yoldaşı, yaxın qohumları və AFFA-dan tanınmış nümayəndələr dəvət edilmiş, liseyin müəllim və kursant heyəti meydançaya toplaşmışdılar. Futbol meydançasındakı qələbəlik mötəbər yarışlardan birinin keçiriləcəyindən xəbər verirdi.



Ümummilli liderimiz Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını fəda etmiş şəhidlərimizin ruhu yad edildikdən və Dövlət himni səsləndirildikdən sonra Hərbi Liseyin rəisi polkovnik Rüfət Əmirov Azərbaycanın Milli Qəhrəmanı Əfqan Hüseynovun xatirəsinə həsr olunmuş futbol turnirinin açılışı münasibətilə tədbir iştirakçılarını təbrik edib və "sağlam bədəndə sağlam ruh olar" deyərək komandalara müvəffəqiyyətlər arzulayıb.

Hərbi Lisey rəisinin şəxsi heyətlə iş üzrə müavini polkovnik Rəhim Səmədov qəhrəmanın həyatı və döyüş yolu barədə çıxış edərək bildirdi ki, 1963-cü il fevralın 24-də Bakı şəhərində anadan olan Əfqan 1980-ci ildə o vaxtkı C.Naxçıvanski adına hərbi təmayüllü orta internat məktəbinə qəbul olunur. Bakı Ali Ümumqoşun Komandirləri Məktəbində də təhsilini davam etdirən Əfqan 1984-cü ildə leytenant hərbi rütbəsi alır. 1985-1987-ci illərdə Əfqanıstanda gedən döyüşlərdə fəal iştirak edir və orada ağır yaralanır. Onun döyüş xidməti yüksək qiymətləndirilərək "Qırmızı ulduz" ordeni ilə təltif edilir.

Polkovnik çıxışına davam edərək qəhrəmanın Vətənə geri döndüyü, ona doğma olan məktəbdə - C.Naxçıvanski adına hərbi məktəbdə tərbiyəçi bölük komandiri təyin olunduğu, müstəqillikdən sonra ölkəmizin təhlükəsizlik orqanlarında xidmətə başladığı dövründən bəhs edir. "1992-ci ildə Ə.Hüseynov Füzuli bölgəsində ağır döyüşlərdə iştirak edir. Milli Qvardiyanın tərkibində yaradılan ilk alaya komandir təyin edilir. Qısa müddət ərzində formalaşdırılan alayın şəxsi heyəti hərbi əməliyyatlarda iştirak edir. Qəhrəman komandir isə 1992-ci il noyabrın 1-də düşmən gülləsindən gözlərini əbədi yumur. Ə.Hüseynovun şərəfli ömür yolu hər bir gəncə örnəkdir".



AFFA-nın məsul işçisi, beynəlxalq dərəcəli hakim Asim Xudiyev, Regional Futbol Federasiyasının prezidenti, "Neftçi" futbol komandasının əfsanəvi oyunçusu, "Şöhrət" ordenli İsgəndər Cavadov, Futbol Veteranları Şurasının sədri Oktay Abdullayev və beynəlxalq dərəcəli hakim Füzuli Nəcəfov çıxış edərək komandalara uğurlar arzuladılar.

Sonra qəhrəmanın həyat yoldaşı Leyla Hüseynovaya söz verildi. O, Əfqanın xatirəsinə həsr olunan belə təntənəli futbol yarışının təşkili üçün liseyin rəhbərliyinə və müəllim-kursant heyətinə təşəkkürünü bildirərək gələcəyin zabitlərini Vətəni sevməyə, Ali Baş Komandanın əmrinə hazır olmağa və torpaqlarımızı erməni işğalçılarından azad etməyə səslədi.

Baş hakim Samir Ələsov yarışın başlanmasını elan etdikdən sonra topa ilk zərbə rəmzi olaraq əfsanəvi futbolçu İsgəndər Cavadov tərəfindən gəldi.

Liseyin fiziki hazırlıq bölməsinin rəisi, ehtiyatda olan mayor Fərhad Əliyev bu cür yarışların keçirilməsinin əhəmiyyətindən danışaraq vurğuladı ki, belə tədbirlər kollektivdə dostluq, yoldaşlıq ənənələrinin yaşanmasına və möhkəmlənməsinə xidmət edir. Həm də belə tədbirlər gələcəyin zabitlərinə fiziki vərdişlərini möhkəmlətməyə imkan yaradır.

Turnirin noyabrın 2-dən 13-dək davam etməsi və hər gün oyunun keçirilməsi nəzərdə tutulub. Hava şəraitinin qeyri-sabit olacağı təqdirdə yarışın müddətinin uzanılması da istisna deyil. 14 komanda birincilik uğrunda mübarizə aparacaq. Birinci kurslar arasında hər kursdan iki komanda dairəvi üsulla yarışı davam etdirəcək.

Qalib komanda Milli Qəhrəman Əfqan Hüseynovun xatirəsinə keçici kubok, II, III yer tutan komandalar medal və fəxri fərmanla mükafatlandırılacaq, eyni mükafatlandırma sistemi ilə həyata keçiriləcək. Bundan başqa ən yaxşı oyunçular hədiyyələrlə təltif ediləcək.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**kiçik çavuş**
**Namiq PƏNAHOVUNDUR**

---

## **XİN:** Ceyms Uorlikin Dağlıq Qarabağ münaqişəsinin həlli ilə əlaqədar digər təşkilatlara məsləhət verməyə haqqı yoxdur

***ATƏT-in Minsk qrupunun ABŞ-dan olan həmsədri Ceyms Uorlikin Twitter profili vasitəsilə Avropa Şurası Parlament Assambleyasının siyasi işlər və demokratiya komitəsinin Dağlıq Qarabağ münaqişəsi məsələsi üzrə məruzəçisi Robert Uolterin hesabatına dair şərhinə münasibət bildirən Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev deyib:***

"ATƏT Minsk qrupunun həmsədrləri tərəfindən münaqişənin həlli istiqamətində hər hansı cüzi irəliləyişə belə nail olunmadığı halda, Ceyms Uorlikin münaqişənin həlli ilə əlaqədar digər təşkilatlara məsləhət və ya tövsiyə verməyə əsası və haqqı yoxdur. İndiyə qədər ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən həyata keçirilən fəaliyyətin mahiyyəti sıfra bərabərdir. Bunun müqabilində münaqişənin həllinə töhfə verməyə çalışan digər beynəlxalq qurumların mənasız fəaliyyətlə məşğul olan ATƏT-in Minsk qrupunun həmsədrləri ilə məsləhətləşməsinə heç bir lüzum görülmür.

Əksinə, ATƏT-in Minsk qrupunun həmsədrləri, xüsusilə Ceyms Uorlikin beynəlxalq ictimaiyyətin iradəsinin ifadəsi olan BMT Təhlükəsizlik Şurası və Baş Assambleyanın müvafiq qətnamələri, Avropa Şurası Parlament Assambleyası, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təşkilatların münaqişənin həllinə dair sənədlərinin məram və prinsiplərini rəhbər tutmasına və bu qurumlarla məsləhətləşməsinə ehtiyac var.

ATƏT-in Minsk qrupunun bu cür yarıtmaz fəaliyyəti hər bir vəchlə işğalçılıq siyasətini davam etdirmək və mövcud status-kvonu saxlamaq siyasəti güdən Ermənistanın maraqlarına xidmət edir.

Ceyms Uorlikin də Ermənistanın işğalçılıq siyasətinin davam etdirilməsinə xidmət edən bu planın tərkib elementi olması istisna deyil".

**AZƏRTAC**

---

Polkovnik-leytenant Eminov Emil Talıb oğluna 1997-ci ildə verilmiş müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
mayor
Bəxtiyar ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 864
Nüsxə 4710